# Azərbaycan Respublikasının Nazirlər Kabineti

# «Universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərin kompensasiyası Qaydaları və mənbələri»nin təsdiq edilməsi barədə

# Qərar № 225

***Bakı şəhəri, 14 dekabr 2005-ci il***

«Poçt ~~rabitəsi~~ haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli, 115 nömrəli Fərmanının 1.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. «Universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərin kompensasiyası Qaydaları və mənbələri» təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (12 dekabr 2005-ci il, № 12, maddə 1225) («VneshExpertService» LLC).***

***14 oktyabr 2008-ci il tarixli, 243 nömrəli; 3 fevral 2009-cu il tarixli, 19 nömrəli qərarlara əsasən dəyişikliklərlə («VneshExpertService» LLC).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2005-ci il 14 dekabr tarixli,*
*225 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

# Universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərin kompensasiyası Qaydaları və mənbələri

1. Bu Qaydalar «Poçt ~~rabitəsi~~ haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 31 avqust tarixli, 115 nömrəli Fərmanının 1.6-cı bəndinin icrası məqsədi ilə hazırlanmışdır.

2. «Poçt ~~rabitəsi~~ haqqında» Azərbaycan Respublikası Qanununun 11.5-ci maddəsində təsbit olunan universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə bağlı zərərə görə kompensasiyanın (bundan sonra — kompensasiya) ödənilməsi bu Qaydalarla tənzimlənir.

*3. Kompensasiya Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir.*

4. Universal poçt rabitəsi xidmətlərindən dəyən zərərin hesablanması metodikası milli poçt operatoru tərəfindən hazırlanır və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müvafiq nazirliklərlə razılaşdırılaraq həyata keçirilir.

5. Kompensasiyanın həcmi universal poçt rabitəsi xidmətlərinin göstərilməsi ilə əlaqədar milli poçt operatoruna dəyən faktiki zərərlə müəyyən olunur.

6. Kompensasiyanın həcmi əvvəlki ilin faktiki zərəri məbləğində müəyyən edilir və ilin yekununa əsasən son hesablaşmalar aparılır.

7. Milli poçt operatorunun kompensasiya məbləği barədə təkliflərinə hər il yanvarın 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində baxılır.

8. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən milli poçt operatoruna ödəniş il ərzində rüblər üzrə həyata keçirilir.

9. Hesabat ili üçün kompensasiyaya görə son hesablaşma əsasında müəyyən edilən fərq növbəti ilin Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin xərclər proqnozunda nəzərə alınır.

---

*© VneshExpertService LLC*